# **Həftəlik**

# *Bülleten*

**134**

**19 Mart 2026**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**"Yerin təki haqqında" qanuna dəyişikliklər qəbul edilib.**

Milli Məclis "Yerin təki haqqında" qanuna dəyişiklikləri qəbul edib. Sənəd yerin təkindən istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, yer təki sahələrinin rekultivasiyasının məqsədi işlərin aparıldığı ərazidə torpağın münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yüksəldilməsi, o cümlədən ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasıdır və bunun üçün yer təki istifadəçiləri həmin torpaqların rekultivasiya planını tərtib etməli və rekultivasiyanı da həmin plan əsasında təmin etməlidirlər. Sənəddə diqqətə çatdırılıb ki, ölkə üzrə faydalı qazıntı yataqlarının əhəmiyyətli hissəsi kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşir. Qeyri-neft sektorunun və sənayenin inkişafı, xammal asılılığının azaldılması məqsədilə bu yataqların istismarı zəruridir. Bu çərçivədə rekultivasiya planlarının hazırlanması, dövlət ekoloji ekspertizasından keçirilməsi, münbit torpaq qatının qorunması və bərpası, hidrogeoloji və mühəndis-geoloji şəraitin nəzərə alınması kimi tələblər müəyyən ediləcək və torpaqların əvvəlki və ya alternativ faydalı vəziyyətə qaytarılması təmin ediləcək. Bildirilib ki, dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.



**Azərbaycan sənaye təhlükəsizliyi üzrə yeni dövlət standartlarını qəbul edib.**

Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) sənaye təhlükəsizliyi sahəsinə dair yeni dövlət standartları qəbul edib. Dövlət Agentliyinə istinadən xəbər verir ki, bunlar, AZS ISO 4414:2026 "Pnevmointiqallı sistemlər, onların komponentləri ilə bağlı ümumi qaydalar və təhlükəsizlik tələbləri", AZS ГОСТ 15.109:2026 "Məhsulun işlənib hazırlanması və istehsala buraxılması sistemi. Sənaye partlayıcı materialları", AZS ГОСТ 194:2026 "Texniki difenilamin. Texniki şərtlər", AZS ГОСТ 23172:2026 "Stasionar qazanlar. Terminlər və təriflər", AZS ГОСТ 24856:2026 "Boru kəməri armaturu. Terminlər və təriflər", AZS ГОСТ 31371.1:2026 "Təbii qaz. Qaz xromatoqrafiyası üsulu ilə tərkibin təyini və qeyri-müəyyənliyin qiymətləndirilməsi. Hissə 1. Ümumi məlumatlar və tərkibin təyini", AZS ГОСТ 33732:2026 "Pirotexniki məmulatlar. Ümumi təhlükəsizlik tələbləri", AZS ГОСТ 33950:2026 "Pirotexniki məmulatlar. Sınaq metodları", AZS ГОСТ 33984.2:2026 "Liftlər. Sertifikatlaşdırma zamanı tədqiqat (sınaq) və ölçmələrin aparılma qayda və metodları. Nümunə götürmə qaydaları" və AZS ГОСТ 33984.3:2026 "Liftlər. Liftin təhlükəsizlik qurğularının sertifikatlaşdırılması aparılarkən tədqiqat (sınaq) və ölçmələrin aparılma qayda və metodları. Nümunələrin götürülmə qaydaları" dövlət standartlarıdır. "



**Azərbaycanda sənayenin vəziyyəti açıqlandı.**

Dövlət Statistika Komitəsi 2026-cı ilin yanvar-fevral aylarında sənaye istehsalı haqqında məlumatları açıqlayıb.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar-fevral aylarında 9,3 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,5 faiz çox sənaye məhsulu istehsal edilmişdi.

Emal sənayesində 2026-cı ilin yanvar-fevral aylarında daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, elektrik avadanlıqlarının istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri sahələrində olmuşdur.



**Tikinti sektorundakı problemlər hökumətin hesabatında gündəmə gətirildi.**

Tikinti sahəsində prosedurların sadələşdirilməsi və icazələrin verilməsi müddətinin azaldılması gündəmə gəlib. Nazirlər Kabinetinin 2025-ci il üzrə hesabatında qeyd olunur ki, bu istiqamətdə mövcud qaydaların yenidən nəzərdən keçirilməsinə ehtiyac var. Millət vəkili Vüqar Bayramov bildirir ki, prosedurların sadələşdirilməsi və yerli səviyyədə yaranan bəzi əngəllərin aradan qaldırılması tikinti icazələrinin verilməsi müddətinin bir neçə dəfə azaldılmasına imkan yarada bilər. Onun sözlərinə görə, tikinti sektoru həm iqtisadi artımın, həm də məşğulluğun təmin olunmasında mühüm rol oynayır. Tikinti icazələrinin verilməsi prosesinin daha da sürətləndirilməsi bu sahəyə investisiya marağını artıracaq. Rəsmi statistikaya görə, ötən il ölkədə 129,1 milyard manatlıq ümumi daxili məhsul formalaşıb. Bununla belə, inşaat sektorunun ÜDM-də payı 2 faizdən də azdır. Nəticədə prosedurların sadələşdirilməsi və yerli səviyyədə süni baryerlərin aradan qaldırılması tikinti sektorunun inkişaf potensialını artırmaqla yanaşı, minlərlə yeni iş yerinin yaradılmasına da şərait yarada bilər.



**Möminə xatun türbəsinin bərpasına 9 milyon manatdan çox pul ayrıldı.**

Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılıb. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün Azərbaycan Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9 milyon 566 min manat vəsait ayrılıb.



**Bakıda 260 ünvandan sakinləri köçürəcəklər – Hökumətdən açıqlama.**

Ölkənin əsas daşınmaz əmlak mərkəzlərində - Bakı, Sumqayıt və Gəncə şəhərlərində qəzalı binaların sayı və həmin binalar, eləcə də burada yaşayan əhali ilə bağlı hökumətin planları açıqlanıb. Bu, Milli Məclisin martın 13-də keçirilən iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı”nda əksini tapıb. Hesabatda bildirilir ki, yerli icra hakimiyyəti orqanlarının müraciətləri və Nazirlər Kabinetinin tapşırığı əsasında Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri bu şəhərlərdə qəzalı binaların siyahısını hazırlayıb. İşçi qrup tərəfindən aparılan araşdırmaya əsasən Bakı şəhərində 228 ünvanda, Sumqayıtda 21 ünvanda, Gəncə şəhərində isə 11 ünvanda, yəni ümumilikdə 260 ünvanda qəzalı bina aşkar edilib. Belə ki, Bakıdakı 228 ünvanda 7170 mənzil, Sumqayıt şəhərində 21 ünvanda 464 mənzil və Gəncə şəhərində 11 ünvanda 708 mənzil var. Hökumətin planlarına görə, həmin binalardakı əhali köçürüləcək, binaların özü söküləcək və onların yerində, əgər qanunla mümkün olarsa, yeni binalar tikiləcək. Hesabatda deyilir ki, həmin binaların 159-u dövlət vəsaiti, 84-ü investorların (yəni tikinti şirkətlərinin) vəsaiti, 17-i isə həm dövlət, həm də investor vəsaiti hesabına söküləcək, buradan sakinlərin köçürüləcək və yeni binalar tikiləcək.



**Azərbaycan Türkiyədən sement, şüşə və keramika idxalına çəkdiyi xərci 17 %-dən çox artırıb.**

Bu ilin yanvar-fevral aylarında Azərbaycan Türkiyədən 7,94 milyon ABŞ dolları dəyərində sement, şüşə, keramika və torpaq məmulatları idxal edib. Türkiyə İxracatçılar Məclisinə istinadən xəbər verilir ki, bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 17,3 % çoxdur.

Fevralda Türkiyə Azərbaycana 3,537 milyon ABŞ dolları dəyərində sement, şüşə, keramika və torpaq məmulatları ixrac edib ki, bu da 1 il əvvələ nisbətən 2,4 % çoxdur. İki ayda Türkiyənin sement, şüşə, keramika və torpaq məmulatları ixracının ümumi dəyəri illik müqayisədə 2,6 % artaraq 653,987 milyon ABŞ dollarına, fevralda isə 5,2 % artaraq 337 milyon ABŞ dollarına çatıb. Türkiyədən ən çox idxalı ABŞ 107,608 milyon ABŞ dolları (1 il əvvələ nisbətən 10,1 % çox), İtaliya 47,325 milyon ABŞ dolları (+11,9 %) və Almaniya 42,117 milyon ABŞ dolları (-4,2 %) həyata keçirib.



**Azərbaycan sement ixracından 3 milyon dollar itirib- YENİ RƏQƏMLƏR.**

Bu ilin ilk 2 ayında Azərbaycandan 6 milyon 62 min dollar dəyərində 104 min 921 ton sement və klinker ixrac edilib. Dövlət Gömük Komitəsinə istinadən xəbər verilir ki, sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 3 milyon dollar və ya 33%, miqdar ifadəsilə isə 37 min 236 ton, başqa sözlə 26,2% azdır.

Qeyd edək ki, 2025-ci ilin ilk 2 ayında Azərbaycandan 9 milyon 59 min dollar dəyərində 142 min 157 ton sement ixrac olunmuşdu.

Bu ilin nəticələrinə görə sementin 1 kiloqramının orta ixrac qiyməti 0,057 dollar (9,7 qəpik) təşkil edib. 2025-ci ildə isə bu rəqəm 0,064 dollar (10,9 qəpik) idi. Bu da illik müqayisədə 0,007 dollar (1,2 qəpik) və ya 10,9% ucuzlaşma deməkdir. Bu il ilk 2 ayda ümumi ixracın 0,17%-i, qeyri-neft sektoru üzrə ixracın isə 1,04%-i sementin payına düşüb.



**Sərginin adı: BUILDTECH ASIA 2026**
**Tarixlər: 24-26 mart 2026-cı il,**
**Məkan: Sinqapur Sərgisi, Sinqapur (Sinqapur)**
Sinqapurda keçirilən Beynəlxalq Tikinti və Tikinti Sənayesi Sərgisi. BUILDTECH ASIA sərgisində tikinti texnikası, tikinti avadanlıqları, tikinti üçün materiallar, elektrik və mexaniki mühəndislik sahəsində ən son nailiyyətlər nümayiş olunacaq.

**Sərginin adı: FUTURECITY EXPO 2027**
**Tarixlər: 24 - 26 mart 2026 -cı il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Ağıllı şəhər texnologiyalarına və müasir şəhərsalma konsepsiyalarına həsr olunmuş hərtərəfli sənaye tədbiridir. Şəhərsalma, yaşıl infrastruktur sahələrində innovasiyalar...

**Sərginin adı: IACE CHINA 2026**
**Tarixlər: 24-26 mart 2026-cı il,**
**Məkan: Milli Sərgi və Konqres Mərkəzi, Şanxay (Çin)**
Şanxay Beynəlxalq Qabaqcıl Keramika Sərgisi və Konfransı

**Sərginin adı: MOLDCONSTRUCT 2026**
**Tarixlər: 26 - 29 mart 2026-cı il,**
**Məkan: I.E.C. Moldexpo, Kişinyov (Moldova)**
Tikinti Texnikaları və Avadanlıqları. Tikinti və Dekorasiya Materialları. İzolyasiya, Örtük. Tavanlar və Dam örtükləri. Santexnika Avadanlıqları. Keramika Məmulatları. Şüşə Məmulatlar, Pəncərələr və Qapılar. İstilik, Havalandırma və Kondisioner Sistemləri

**"REGİONAL SU MELİORASİYA XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER KEÇİRİR.**

"Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti "Mollabürhanlı kəndi ərazisində Qudyalçayın sol sahilində daş-beton bəndin əsaslı təmiri (L=100,0p/m)" işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşad Fərəcov, Satınalmaların təşkili sektorunun müdiri
Email: elshad.ferecov@rsmx.gov.az
Əlaqə telefonu: +994 12 377 07 70 (601)



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Tenderin predmeti Bakı şəhəri və Qəbələ rayonunda salınmış məcburi köçkün qəsəbələrində binaların dam örtüyünün təmiridir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30



**MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL İNKİŞAF FONDU TENDER KEÇİRİR.**

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu açıq tender elan edir. Tenderin predmeti Laçın rayonunun Bəylik kənd yaşayış məntəqəsində yağış sularının idarə olunması tədbirləri üzrə beton kanalın və istinad divarının tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aygün Hüseynova, Satınalmalar üzrə menecerin müavini
Email: a.huseynova@sfdi.gov.az
Əlaqə telefonu: +994 12 431 87 03



**"RESPUBLİKA PEDİATRİYA MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER KEÇİRİR.**

"Respublika Pediatriya Mərkəzi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti "Respublika Pediatriya Mərkəzi" PHŞ - nin nəzdində olan xəstəxanalarda cari təmir işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Alışova Yaqut, Satınalma şöbəsinin müdiri
Email: rpmsatinalma@gmail.com
Əlaqə telefonu: +994 51 619 89 37



**QAXDA TƏMİR İŞLƏRİ İLƏ BAĞLI İKİ TENDER ELAN EDİLDİ.**

Qax Rayon İcra Hakimiyyəti (VÖEN – 4300015071) Qax şəhərində infrastrukturun yenilənməsi və yaşayış binalarının təmiri məqsədilə iki açıq tender elan edir.
Tenderin predmeti küçələrdə yol və səkilərin əsaslı təmir işləri, kommunal yaşayış binalarında təmir işləridir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tağıyev Elbrus, Qax Rayon İcra Hakimiyyəti başçısının I müavini
Email: mail@qax-ih.gov.az
Əlaqə telefonu: +994 55 645 85 49





**www.atmia.az**